**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.28**

# NAXÇIVAN MSSR-DƏ TƏRƏQQİ, MÜHARİBƏ VƏ BƏRPA İLLƏRİNİN STAXANOVÇULARI

# STAKHANOVITES OF THE NAKHCHIVAN ASSR IN THE YEARS OF PROGRESS, WAR AND RECONSTRUCTION

**Fəxrəddin CƏFƏROV[*], Yaşar RƏHİMOV[**]**

## XÜLASƏ

Xalqımızın tarixinin doğru-düzgün yazılmasında, tarixi hadisə və faktların obyektiv araşdırılmasında və tarixi həqiqətlərin üzə çıxarılmasında Azərbaycanın XX əsrin 20-30-cu illər tarixinin öyrənilməsinin mühüm elmi və siyasi əhəmiyyəti vardır. Məqalədə 30-cu illərdə əmək məhsuldarlığını yüksəltmək uğrunda genişlənən hərəkatlardan biri olan Staxanov hərəkatı haqqında bəhs edilir. Azərbaycan SSR-in və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR-in zəhmətkeşləri də bu hərəkata qoşularaq yüksək nailiyyətlər əldə etmişlər. Bu illərdə həmyerlilərimizin göstərdiyi əmək rəşadətləri, onların təltif və mükafatlandırılması, əmək fədakarlığı və b. məsələlər tədqiqata cəlb olunmuş və araşdırılmışdır. Muxtar respublika əməkçiləri Staxanov hərəkatına qoşularaq dövlət plan və tapşırıqlarını vaxtından əvvəl yerinə yetirmişlər. Məqalədə tərəqqi, müharibə və bərpa illərində muxtar respublika staxanovçuların fəaliyyəti tədqiq edilmişdir.

**Açar sözlər:** *Naxçıvan MSSR, staxanov hərəkatı, tərəqqi illəri, dövlət planları, beşilliklər, təltif və mükafatlar.*

## ABSTRACT

The study of the 1920s-1930s history of Azerbaijan holds significant scholarly and political importance for the accurate reconstruction of the nation's past, the objective investigation of historical events and facts, and the revelation of historical truths. This article examines the Stakhanov movement, one of the campaigns that expanded during the 1930s to increase labor productivity. Workers of the Azerbaijan SSR and, as an integral part thereof, the Nakhchivan ASSR joined this movement and achieved notable successes. The research addresses issues such as the labor valor displayed by compatriots during these years, their awards and recognitions, and their dedication to work. Laborers of the autonomous republic fulfilled state plans and targets ahead of schedule by participating in the Stakhanov movement. The study investigates the activities of Stakhanovites in the autonomous republic during the years of progress, war and reconstruction.

**Keywords:** *Nakhchivan ASSR, Stakhanov movement, years of progress, state plans, five-year plans, awards and recognitions.*

## GİRİŞ

Ümummilli lider Heydər Əliyev XIX-XX əsrlər tarixinin yenidən yazılmasını, o cümlədən ötən əsrin 20-30-cu illər tarixinin yeni konsepsiyada yazılmasını tarixçi alimlərin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab etmişdi. Azərbaycan tarixinin bütün dövrlərinin, o cümlədən 20-30-cu illər tarixinin yeni arxiv materialları ilə yazılmasına mühüm diqqət verən ulu öndər Heydər

[*] Naxçıvan Dövlət Universiteti, e-mail: fexreddinceferov@ edu.az
ORCİD: 0009-0006-5541-6814
[**] AMEA Naxçıvan Bölməsi, e-mail: yasarrahimov@yahoo.com
ORCİD: 0009-0006-5473-8758

Əliyev deyirdi: “Bu sahədə tarixçilərimiz qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür… Biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün yaxşı əks etdirən əsərlər” gözləyirik. Bu baxımdan həmin dövrə aid hər hansı bir tədqiqatın mövzuları aktual səslənir və problemi öyrənməyin, dövrün mürəkkəb məsələlərini süzgəcdən keçirməyin, tariximizin ibrət dərslərindən məntiqi nəticə çıxarmağın çox böyük əhəmiyyəti vardır. 20-30-cu illərdə nə qədər çətin və mürəkkəb olsa da, xalqımızın tarixi inkişafında böyük nailiyyətlər qazanılmış, dövlətimiz tərəqqi etmişdir. Həmin illərdən bəhs edərkən ümummilli lider Heydər Əliyev demişdir: “20-30-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri əmələ gəlmiş…, kənd təsərrüfatı dirçəlmiş…, Azərbaycan elliklə savadlanmışdı…” [Əliyev, 2001, s. 14-15].

## TƏRƏQQİ İLLƏRİNİN STAXANOVÇULARI

30-cu illərdə əmək məhsuldarlığını yüksəltmək uğrunda müxtəlif hərəkatlar mövcud idi. Belə hərəkatlardan biri də Staxanov hərəkatı idi. Staxanov hərəkatı SSRİ-də sosialist istehsalı yenilikçilərinin – qabaqcıl fəhlələrin, kolxozçuların, mühəndis-texnik işçilərin yeni texnikanı mənimsəməklə əmək məhsuldarlığını yüksəltmək uğrunda kütləvi hərəkatı idi. Bu hərəkat 1935-ci ildə sosializm yarışının yeni mərhələsi kimi yaranmışdır. “Staxanov hərəkatı” onun təşəbbüsçüsü olan Donbas şaxtaçısı Aleksey Staxanovun adı ilə bağlıdır [Cəfərov, 1985, s. 2]; Azərbaycan SSR-də Staxanov hərəkatının təşəbbüskarları – neft sənayesində Ağa Nemətulla, İsmayıl Mikayıl, Q.Əsədov, toxuculuq sənayesində K.Rzayeva, M.Nəbiyev, baramaaçmada A.Həsənov, M.Qafarov, duz sənayesində M.Musayev, kənd təsərrüfatında B.Bağırova, Q.Səmədov və başqaları olmuşlar.

Staxanov hərəkatının böyük yaradıcı qüvvəsi Azərbaycanın, o cümlədən muxtar respublikamızın zəhmətkeşlərini də misilsiz əmək qəhrəmanlığı göstərməyə ruhlandırmışdır. Onlar ilk günlərdən Staxanov hərəkatına qoşularaq yüksək nailiyyətlər əldə etmişlər. Naxçıvan (indiki Babək) rayonunun Güznüt kəndindəki 26 Bakı komissarı adına kolxozun üzvləri Staxanov hərəkatında yaxından iştirak edərək 1935-ci ildə əkin sahələrindən 248 sentner əvəzinə 360 sentner pambıq götürməyə nail olmuşlar. Bu yüksək nailiyyətlərə görə kolxozun bir çox staxanovçusu pulla mükafatlandırılmış və təsərrüfatda hər bir əmək gününə 10 kiloqram buğda, 10 manat pul bölünmüşdür. Naxçıvan rayonunun Əliyabad kəndindəki “Proletar” və şəhərətrafı “İttifaq” kolxozunun üzvləri bu hərəkatın ön sıralarında gedərək 1935-ci ilin dövlət planlarını və sosialist öhdəliklərini vaxtından əvvəl yerinə yetirmişlər [Джафаров, 1985, s. 2].

Muxtar respublikanın digər rayonlarının təsərrüfatları, o cümlədən Şərur rayonunun Zeyvə kəndindəki Qarayev adına, Baş Noraşen (indiki Cəlilkənd) kəndindəki Noqin adına, Mahmudkənddəki Telman adına və b. kolxozların əməkçiləri də Staxanov hərəkatına qoşularaq 1935-ci ildə dövlət planlarını vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişlər.

Yüksək pambıq ustası, Naxçıvan MSSR Ali Sovetinin deputatı, Noraşen (Şərur) rayonunun Sərxanlı kəndindəki kolxozun manqabaşçısı İlyas Mustafayev 1936-1938-ci illərdə 5 hektar pambıq əkini sahəsinin hər hektarından 80,2 sentner məhsul götürdüyünə görə “Qızıl” medal və 3 min manat pulla mükafatlandırılmışdır. Həmin rayonun Çomaxtur kəndindən Naxçıvan MSSR Ali Sovetinin deputatı Nəsrulla Tahirov, Muğancıq-Mehrab kəndindən Naxçıvan MSSR Ali Sovetinin deputatı Sara Əliyeva və başqaları da qiymətli hədiyyələrlə və pulla mükafatlandırılmışlar [Джафаров, 1985, s. 2].

Naxçıvan MSSR-in təsərrüfatlarında çalışan staxanovçular 1939-cu ilin plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirərək dövlətə plandan əlavə tonlarla kənd təsərrüfatı məhsulları vermişlər. Həmin il pambıq satışı planı 133,3 faiz, tütün satışı planı 106 faiz, barama satışı planı 110 faiz yerinə yetirilmişdir. Ayrı-ayrı təsərrüfatlar, o cümlədən Noraşen (indiki Şərur) rayonunun Qrxun, Çərçiboğan, Muğancıq-Müslüm, Yuxarı Aralıq, Naxçıvan (indiki Babək) rayonunun Didivar, Nəzəra-

bad və Vayxır kəndlərindəki kolxozlar daha yüksək göstəricilər əldə etmişlər. Qazanılmış nailiyyətlərə görə 300 nəfər staxanovçu Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinə göndərilmişdir [NMRDA: f. 299, s.1, iş 37].

1939-cu ilin nəticələrinə görə Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin baş komitəsi Naxçıvan MSSR-in qabaqcıl kolxozlarını və kolxozçularını sərginin qızıl və gümüş medalları ilə təltif etmişdir. Noraşen (Şərur) rayonunun Qıvraq kəndindəki (hazırda Kəngərli rayonuna daxildir) "Qırmızı Oktyabr" kolxozu birinci dərəcəli, Yurdçu kəndindəki Puşkin adına kolxoz isə ikinci dərəcəli diplomlara layiq görülmüşlər.

Sərxanlı kəndindəki kolxozun manqabaşçısı İlyas Mustafayev qızıl medalla, Yurdçu kəndindəki kolxozun briqadiri Ələsgər İbrahimov və Maxta kəndindəki kolxozun manqabaşçısı Ümbülü Məcidova gümüş medalla təltif olunmuşlar [Cəfərov, 1985, s. 2].

Kolxozlarla əlbir işləyən maşın-traktor stansiyalarının staxanovçuları da yüksək göstəricilərə görə dövlət mükafatları ilə təltif olunmuşlar. Onlardan Noraşen rayon (Şərur) MTS-nin aqronomu Əhməd Həsənov, traktorçular Yunis Tarverdiyev, Yusif Hacıyev və Naxçıvan MTS-nin traktorçusu Əmir Babayev yüksək keyfiyyətli şum edib dövlət planını artıqlaması ilə yerinə yetirdiklərinə görə gümüş medallar almışlar. Bundan başqa birinci dərəcəli diplom almış Qıvraq kəndindəki "Qırmızı Oktyabr" kolxozuna 1 minik maşını, 10 min manat, ikinci dərəcəli diplom almış Yurdçu kəndindəki Puşkin adına kolxoza 1 motosiklet və 5 min manat pul mükafatı verilmişdir.

1939-1940-cı illərdə Culfa dağ-mədən kombinatının staxanovçuları istehsalat planlarını artıqlaması ilə yerinə yetirərək yüksək əmək məhsuldarlığına nail olmuşlar. Kombinatın ən yaxşı staxanovçusu, Culfa rayon sovetinin deputatı Həbib Abdullayev 1940-cı il yanvar ayının iş normasını 12 gündə 300 faiz yerinə yetirərək 1200 manat əmək haqqı almışdır. H. Abdullayev ilə yarışan şaxtaçı Hüseyn Aydınov bir aylıq iş normasını 15 gündə 250 faiz yerinə yetirmişdir.

## MÜHARİBƏ İLLƏRİNİN STAXANOVÇULARI

Böyük Vətən müharibəsi illərində muxtar respublikanın staxanovçuları misilsiz əmək nümunələri göstərmişlər. Naxçıvan MSSR-in vətənpərvər kolxozçuları Vətənə daha çox kənd təsərrüfatı məhsulları vermək, müharibənin törətdiyi çətinliklərə baxmayaraq arxa cəbhədə əhalinin korluq çəkməməsi naminə durmadan çalışaraq məhsul istehsalını xeyli artırmağı öhdələrinə götürmüşlər. Bu öhdəliklərin parlaq timsalını Noraşen rayonunun (Şərur) Qarabağlar kəndindəki Karl Marks adına kolxozun üzvlərinin 1943-cü ildə muxtar respublikanın bütün kolxozçularına müraciətində aydın görmək olar. Müraciətdə deyilirdi: "Bizim kolxozda heyvandarlıqdan alınan gəlir ümumi gəlirin 65 faizini təşkil edir. Fermada 544 baş qaramal, 2 min başdan çox qoyun, 41 at və s. heyvanlar vardır. Biz dövlətə 19 pud ət, 50 pud yağ, 64 pud pendir, 110 pud un və başqa kənd təsərrüfatı məhsulları, bundan əlavə 1944-cü ilin tədarükatı hesabına 19 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvan vermişik. 100 inəkdən 85 baş, 100 qoyundan 98 baş bala alınıb saxlanılır. Bu işdə ferma müdiri Manaf Cəlilov, baş çoban Hüseynov, çoban Fərman Süleymanov, sağıcı Xanım Babayeva, Telli Həsənova və başqaları xüsusilə fərqlənmişlər".

Onlar öz müraciətlərində muxtar respublikanın bütün kolxozçularını məhsul istehsalını daha da artırmağa çağırırdılar [Cəfərov, 1985, s. 2].

Karl Marks adına kolxozun əməkçilərinin bu vətənpərvərlik təşəbbüsü muxtar respublika kolxozçularını daha da ruhlandırdı və onlar düşmənin darmadağın edilməsi naminə yüksək öhdəliklər götürərək öz vədlərinə şərəflə əməl etdilər.

Müharibə illərində Ordubad konserv zavodunun staxanovçuları konserv hazırlanması üzrə dövlət planlarını vaxtından əvvəl, artıqlaması ilə yerinə yetirdiklərinə görə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunmuşlar.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 noyabr 1943-cü il tarixli fərmanı ilə kənd təsərrüfatını və heyvandarlığı inkişaf etdirmək haqqında dövlət tapşırıqlarını nümunəvi yerinə yetirdiklərinə görə Azərbaycan SSR-in 485 nəfər qabaqcıl kolxozçusu və kənd təsərrüfatı işçisi SSRİ-nin orden və medalları ilə təltif edilmişdir. Onlardan 13 nəfəri muxtar respublikanın staxanovçuları idi [Джафаров, 1985, s. 2].

Fərmanda göstərildiyi kimi, Naxçıvan MSSR-in zəhmətkeşləri müharibə illərində misli görünməmiş yüksək şüurluluq nümunəsi göstərərək xalq təsərrüfatının bütün sahələrində böyük müvəffəqiyyətlər qazanmış və dövlətə tədarükat planından artıq tonlarla məhsul vermişlər. Məhz buna görə də Naxçıvanın zəhmətkeş kolxozçularının fədakar əməyi sonralar yenə də yüksək qiymətləndirilmiş, partiya və sovet işçilərindən 9 nəfəri 1945-ci ildə ikinci dərəcəli Vətən müharibəsi ordeni ilə təltif olunmuşdur.

Öz şanlı ənənələrinə sadiq qalan muxtar respublikamızın əməkçiləri Staxanov hərəkatının 50 illiyi ərəfəsində sosializm yarışını daha da genişləndirərək onbirinci beşilliyin yekun ilinin tapşırıqlarını və bütövlükdə beşilliyi vaxtından əvvəl yerinə yetirərək, partiyanın XXVII qurultayını yüksək əmək nailiyyətləri ilə qarşılamaq üçün bütün qüvvə və bacarıqlarını əsirgəməmişlər [Джафаров, 1985, s. 2].

## BƏRPA VƏ SONRAKI DÖVRDƏ STAXANOV HƏRƏKATI

Staxanov hərəkatının böyük gücü müharibədən sonrakı beşilliklərin müvəffəqiyyətlə yerinə yetirilməsi uğrunda aparılan mübarizədə də özünü göstərirdi.

1946-cı ilin mart ayında çağırılan SSRİ Ali Sovetinin sessiyası "1946-1950-ci illər xalq təsərrüfatının bərpa və inkişafı haqqında beşillik plan" barədə qanun qəbul etdi.

Naxçıvan MSSR müharibə meydanından uzaq olsa da, ölkənin bərpa və inkişaf etdirilməsi illərində xeyli yüksəlir, geniş kəşfiyyat işləri aparılır. Parağaçay və Gümüşlü mədənlərinin işi xeyli genişləndirilərək inkişaf etdirilir, şəhərlərimiz gözəlləşdirilir, əkinçilik xeyli təkmilləşdirilir, MTS-lər artırılır, xırda kolxozlar birləşdirilir. Partiyanın ölkəni bərpa və inkişaf etdirmək çağırışı Naxçıvan MSSR kolxozçularını ruhlandırır və çağırışa yekdilliklə qoşularaq xalq təsərrüfatı planlarının (1946-1950) yerinə yetirilməsi uğrunda əzmlə çalışıb öhdələrinə götürdükləri öhdəçilikləri artıqlaması ilə yerinə yetirdilər.

Naxçıvan (indiki Babək) rayonunun Nehrəm kənd "Qızıl Ordu" kolxozunun staxanovçusu Hüseynqulu Əliyev 1947-ci ildə öhdəsinə götürdüyü 3 hektar pambıq sahəsinin hər hektarından 45,5 sentner, "Təzəkənd" adlı kolxozun staxanovçusu Dudik 3 hektarın hər hektarından 41 sentner, Bulqan kənd Çaparidze adına kolxozun staxanovçusu Sara Əliyeva 3 hektarın hər hektarından 40 sentner pambıq məhsulu almışdır [NMRDA: f. 314, s.11, iş 206].

Taxılçılıq sahəsində də staxanovçularımız mühüm nailiyyətlər əldə etmişlər. Naxçıvan rayonunun (Babək) Qaraxanbəyli kolxozunun manqabaşçısı staxanovçu Qafar Bağırov 1947-ci ildə 8 hektar buğda sahəsinin hər hektarından 28 sentner, Səyyad Əliyev də 8 hektar sahənin hər hektarından 28 sentner taxıl almışlar.

Kənd təsərrüfatı sahəsində əmək fəaliyyətlərinə görə Noraşen (Şərur) rayonunun Yenkicə kənd "Jdanov" adına kolxozun manqabaşçısı Tamam Əliyeva 1947-ci ildə 3 hektar pambıq sahəsinin hər hektarından 95,6 sentner pambıq məhsulu, 1948-ci ildə Qarabağlar kənd kolxozunun staxanovçusu Xasa Vəliyeva 3 hektar sahədə "Dikqulaq" tütün növü əkərək hər hektardan 20,5 sentner, Növrəstə Quliyeva "Dikqulaq" tütün növü əkərək hər hektardan 25,2 sentner, Qıvraq kənd kolxozunun staxanovçusu Rza İsmayılov 3 hektar tütün sahəsindən 25,7 sentner, Şaxtaxtı kənd kolxozunun manqa başçısı Həsən Məmmədov 25 sentner, Xok kənd kolxozunun manqa başçısı Adil Tağıyev 25,1 sentner, manqa başçısı Banoş Abbasova 25,6 sentner, manqa başçısı Həmid Məmmədov 25,1 sentner, Noraşen (indiki Cəlilkənd) kənd kolxozunun staxanovçusu Yusif Məmmədov

3 hektar üzüm bağının hər hektarından 161,3 sentner, Culfa rayonunun Kırna kənd “V.İ.Lenin” adına kolxozun manqa başçısı staxanovçu Napı Quliyeva 3 hektar üzüm bağının hər hektarından 166 sentner, Münəvvər Əsgərova 162 sentner məhsul götürdüklərinə görə partiya və hökumət onların bu yüksək əməyini qiymətləndirmiş və onlara Sosialist Əməyi Qəhrəmanı adı vermişdir.

1949-cu ildə Naxçıvan MSSR-in yaradılmasının 25 illiyi ilə əlaqədar olaraq muxtar respublikamızın bir çox staxanovçuları təsərrüfat sahəsində əldə etdiyi nailiyyətlərə görə SSRİ Ali Sovet Rəyasət Heyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənəti inkişaf etdirmək işində qazandıqları nailiyyətlərə görə 17 nəfər staxanovçu “Lenin” ordeni, 36 nəfər “Qırmızı Əmək Bayrağı” ordeni, 42 nəfər “Şərəf nişanı” ordeni və 30 nəfər “Əməkdə fərqlənməyə görə” medalı ilə təltif olunmuşlar.

“Lenin” ordeni Şahbuz rayonunun “Lenin” adına kolxozun staxanovçusu Nurəli Ağalıyevə, Noraşen (Şərur) rayonunun “Jdanov” adına kolxozun sədri Hüseyn Əliyevə, Noraşen (Şərur) MTS traktor briqadasının briqadiri İsmayıl İsmayılova, Naxçıvan duz mədəninin qazmaçısı Məhərrəm Musayevə, Naxçıvan (Babək) rayonunun “28 aprel” kolxozunun manqa başçısı Zinyət Əliyevaya, Noraşen (Şərur) rayonundakı “Karl Marks” adına kolxozun manqa başçısı Qurban Həsənova və başqalarına verilmişdir.

“Qırmızı Əmək Bayrağı” ordeni Noraşen (Şərur) rayonundakı “Myasnikov” kolxozunun manqa başçısı Cəfərxan Abbasova, “K.Marks” adına zavodun staxanovçusu Abdulla Abdullayevə, Qulu Əkbərova, Cəbi Allahverdiyevə, Ordubad rayonundakı “Orconikidze” adına kolxozun manqa başçısı Səfəralı Əzimova və başqalarına verilmişdir.

“Paris Kommunası” zavodunun staxanovçusu Ələkbər Cəfərov yoldaş Noraşen (Şərur) rayonundakı Maxta kənd kolxozu pambıq tarlalarının staxanovçusu Qulu Abdullayev yoldaşa məktubunda yazır: “Yoldaş Qulu Abdullayev! Biz Bakı şəhəri Voroşilov rayonu sənaye müəssisələrinin nümayəndələri sizin rayonunuza gələrək sosializm yarışı müqaviləsi bağladığımız gündən bir aydan artıq müddət keçir. Biz Noraşendə olarkən sizin kolxoza da gəldik. Bizim görüşümüz və dostluğumuz da oradan başlandı. Söhbətimiz zamanı biz fərdi olaraq yarışmağı qət etdik.

Mən hazırda qazan sexində ştampovçular briqadasına başçılıq edirəm. Mənim briqadamda 6 şagirdim çalışır. Onlardan 4-ü bir qədər bundan əvvəl Zaqatala rayonu kolxozlarından zavodumuza işləməyə gəlmişdir. Nurcanov isə Sovet Qazaxıstanından gəlmişdir. Onların hamısı olduqca yaxşı və istedadlı olanlardır. Mən onları öz sənətinin ustası etmək vəzifəsini qarşıya qoymuşam. Onlar gündəlik istehsalat tapşırıqlarını 150 faiz yerinə yetirirlər. Gündə hər birisi 2.000 əvəzinə 3.000 mismar, 1.500 əvəzinə 2.200 somun, 1.600 əvəzinə 2.500 qapı dirsəyi hazırlayır. Özüm isə 6 illik tapşırığı yerinə yetirmişəm və hazırda 1953-cü ilin planı səviyyəsində çalışıram. Zavodumuzun yüz nəfərdən artıq staxanovçusu beşillik planı yerinə yetirmişdir.

Yadınızdadırmı, yarış müqaviləsinin Noraşendə imzalandığı zaman mən “Amu-Dərya” və “Molodest” adlı nəqliyyat gəmilərinin təmirini qurtarmağı zavodumuzun işçiləri adından söz vermişdim. Bu gəmilərin təmiri artıq qurtarmış və Xəzər dənizi ilə yük, o cümlədən pambıqçılarımızın topladığı pambıq məhsulunu daşıyırlar.

Məktubun axırında Ələkbər Cəfərov yazır: “Bu günlərdə biz qəzetlərdə Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P MK Mərkəzi Komitəsinin keçici Qırmızı bayrağının rayonunuza verilməsi haqqında məlumatı böyük sevinclə oxuduq. Bizimlə yarışan Noraşen pambıqçılarının bu parlaq müvəffəqiyyəti bizi yeni qələbələrə ruhlandırır.

Çiçəklənən vətənimizin rifahı naminə daha böyük qüvvə ilə çalışmalı olan kolxozunuzun bütün pambıqçılarına bizim təşəkkürümüzü çatdırmağı xahiş edirik”. Dostluq salamı ilə Ələkbər Cəfərov

Staxanovçu pambıqçı Qulu Abdullayev cavab məktubunda yazır: “Yoldaş Ələkbər Cəfərov! Təbrikiniz və nəcib arzularınız üçün “Paris Kommunası” zavodunun işçilərinə və şəxsən sizə təşəkkür edirik.

Biz, Sizin, habelə briqadanızın üzvlərinin və zavodunuzun işçilərinin əldə etdiyi nailiyyətləri dərin razılıq hissi ilə öyrəndik. Biz hamımız əmin oluruq ki, bizim sosializm yarışımız Voroşilov rayonunun sənaye müəssisələri işçilərinin və Noraşen rayonu pambıqçılarının birgə istehsalat qələbəsi ilə nəticələnəcəkdir.

Bu yarış Noraşenin "ağ qızıl" tarlalarında genişlənmişdir. Biz rayonumuza verilən və pambıqçılarımızın yeni əmək yüksəlişinə səbəb olan Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P MK-nin keçici Qırmızı bayrağını əldə möhkəm saxlayacağıq.

Kolxozumuz illik planı ödəmək üzrədir, plan iki-üç günə mütləq yerinə yetiriləcəkdir. Təkcə dövlət planı üzrə bu il biz vətənə 80 ton artıq pambıq verəcəyik. Mənim manqam dövlətə hər hektardan 18 sentner əvəzinə 36 sentner pambıq təhvil verərək illik planı 200 faiz yerinə yetirmişdir. Kolxoz üzrə planı 200 faiz ödəmək uğrunda".

– Biz bu şüarı həyata keçirərək dövlətə 600 ton pambıq verəcəyik.

Mən də gənclərə pambıq məhsulu yetişdirmək və yığmaq ustalığını öyrədirəm. Mənim şagirdim Fatma Qəhrəmanova bu gün gənclər manqasına müstəqil olaraq rəhbərlik edir. Onun cəmisi 19 yaşı var. Amma indi onun döşünü qırmızı Əmək Bayrağı Ordeni bəzəyir. Mir Əli Seyidov da manqa başçısı olmuşdur, onun döşündə isə Lenin ordeni parlayır. Mən də şagirdlərimdən geri qalmıram. Mənim Lenin ordenim və Qırmızı Əmək Bayrağı ordenim vardır.

Biz eyni zamanda kəndimizin abadlığına xüsusi qayğı göstəririk. İndi kəndimizdə gələcək mədəniyyət evi binasının daş divarları yüksəlmişdir.

Kolxozumuzun pambıqçılarının ən qızğın salamını zavodumuzun işçilərinə çatdırmağı və yarışımızda onlara əmək qələbələri qazanmağa arzu etməyi izin verin" [Cəfərov, 1985, s. 2].

"Paris Kommunası" zavodunun staxanovçu fəhlələri ilə Maxta kənd kolxozunun staxanovçuları arasında bağlanmış sosializm yarışı müqaviləsi muxtar respublikanın digər sənaye və kənd təsərrüfatı müəssisələri arasında, o cümlədən Mehri rayonu, Vedi rayonu və s. rayonların staxanovçuları arasında sosializm yarışı müqaviləsi bağlanmasına böyük təşəbbüs oldu.

1952-1953-cü illərdə yüksək məhsul götürmə göstəricilərinə görə Naxçıvan (Babək) rayonu pambıqçılıq təsərrüfatı üzrə Ümumittifaq kənd təsərrüfatı sərgisinə qeyd edilmişdir.

Rayonun Lenin adına kolxozu 250 hektar sahədən dövlətə 475 ton pambıq təhvil vermiş və orta hesabla hər hektardan 28 sentner məhsul götürmüşdür.

Bu kolxozun məşhur pambıqçı staxanovçularından S.Qurbanova, X.Rzayeva, X.Məmmədova yoldaşların manqaları illik pambıq təhvili planını 180-200 faiz yerinə yetirmişlər. Ümumittifaq kənd təsərrüfatı sərgisinə namizəd olan SSRİ Ali Sovetinin deputatı, yüksək məhsul manqa başçısı staxanovçu Rübabə Əliquliyeva 1952-ci ildə 6 hektar sahənin hər hektarından 67,7 sentner, 1953-cü ildə isə 10 hektar pambıq sahəsinin hər hektarından 40 sentner, orta hesabla iki ildə 8 hektar sahənin hər hektarından 50,3 sentner məhsul əldə etmişdir.

Naxçıvan (Babək) rayonunun Orconikidze adına kolxozu da 1952-ci ildə 140 hektar sahənin hər hektarından 24 sentner əvəzinə 35 sentner pambıq məhsulu götürmüşdür. Kolxozun briqadirlərindən staxanovçu Hüseyn Hüseynov 22,5 hektar sahənin hər hektarından 40, 5 sentner və Həsən Bağırov 32 hektar sahənin hər hektarından 43 sentner pambıq məhsulu əldə etmişdir. Hər iki staxanovçu Ümumittifaq kənd Təsərrüfatı sərgisinə namizəd olmuşlar [NMRDA: f. 34, s.1, iş 58].

Ümumittifaq kənd Təsərrüfatı sərgisinin iştirakçısı İsmayıl Hacıyev öz xatirələrində yazır: "Ümumittifaq kənd Təsərrüfatı sərgisi onun bütün iştirakçıları kimi mənə də çox böyük təsir bağışladı. Biz sərgi pavilyonlarının salonlarında gözəl bir təcrübə məktəbi keçdik.

Sərgidə sosialist kənd təsərrüfatı işçilərinin əldə etdikləri misilsiz nailiyyətlərlə yaxından tanış olduq. Sərgi salonlarının canlı eksponatları xüsusilə maraqlı idi. Özbəkistan SSR Sır-Dərya rayonundakı "Qələbə" kolxozundan gətirilmiş hər birinin diri çəkisi 160 kq-a çatan Tissar cinsli çox məhsuldar qoyunlar gördük. Kiyev vilayətindəki kolxozun "Şpanka" adlı Simentol cinsli inəyi də

diqqətimizi cəlb etdi. 769 kq ağırlığında olan bu inəkdən keçən il 12, 222 kq süd sağılmışdır ki, bundan da 405,2 kq yağ emal olunmuşdur.

Heyvandarlıq pavilyonunda qabaqcıl əmək adamlarının iş təcrübələri ilə də tanış olduq. Burada 1 ton 194 kq ağırlığında olan 8 yaşlı öküz və bir ildə 8, 514 kq süd verən inək nümayiş etdirilirdi.

Qüdrətli vətənimizin sosialist heyvandarlığı sahəsində əldə etdiyi nailiyyətləri saymaqla qurtarmaq olmaz" [Cəfərov, 1985, s. 2].

Muxtar respublikamızın zəhmətkeşləri 1950-1970-ci illərdə xalq təsərrüfatının tapşırıqlarını ardıcıl surətdə yerinə yetirərək bütün Azərbaycan xalqı ilə birlikdə, qardaş respublikaların zəhmətkeşləri ilə əl-ələ verib kommunizm quruculuğu yolu ilə inamla irəliləyirdilər.

V.İ.Leninin adını daşıyan duz mədənində yeddiilliyin axırlarında duz hasilatı 50 min tonu ötüb keçdi. Naxçıvan duz mədəninin qazmaçısı staxanovçu Sevindik Novruzov, Ordubad ipək fabrikinin fəhləsi Fatma Ağayeva, Culfa deposunun maşinisti Əbülfəz Cəfərov, Arpaçayı su qurğuları tikintisi idarəsinin elektrik çilingəri Aleksandr Biryukov, Naxçıvan tütün fermentasiya zavodunun fəhləsi Cavanşir Hüseynov və bir çox başqa staxanovçuların fədakar əməyi sayəsində böyük müvəffəqiyyətlər qazanılmışdır.

1958-ci ildə muxtar respublika ölkəyə 24 tondan artıq ipək verdi, yeddiillik ərzində isə ipək istehsalı 40 tonu ötüb keçdi. Ordubad ipək fabrikinin məhsulu öz əla keyfiyyəti ilə bütün ölkədə şöhrət qazandı. Ordubad ipəkçiləri muxtar respublikada kommunist əməyi briqadaları və zərbəçiləri adını almaq uğrunda hərəkatın təşəbbüsçüləri oldular. Bu yüksək ada muxtar respublikada birinci layiq görülən staxanovçu usta Telli Mahmudovanın briqadası oldu.

1950-1970-ci illərdə muxtar respublikanın bir çox kənd əməkçilərinə dövlətin ən yüksək mükafatı olan Sosialst Əməyi Qəhrəmanı adı verildi. Bunlardan Acoş Əliyeva Naxçıvan (Babək) rayonunun Myasnikabad kənd "Z.Cabbarov" adına kolxozda manqa başçısı işlərkən 7 hektar pambıq sahəsinin hər hektarından 70,4 sentner pambıq götürdüyünə görə (20 iyun 1950-ci ildə), Fatma İmanquliyeva İliç (Şərur) rayonunun Dəmirçi kənd kolxozunda manqabaşçısı işlərkən 6 hektar sahənin hər hektarından 60, 1 sentner (12 iyul 1950-ci ildə), Abdulla Məmmədov Yuxarı Aralıq kənd kolxozunun manqa başçısı işlərkən hər hektardan 67,4 sentner (3 aprel 1951-ci ildə), Əli İsmayılov Mahmudkənd kənd kolxozunda manqa başçısı işlərkən hər hektardan 67 sentner (26 iyul 1950-ci ildə), Cəfərxan Abbasov Təzəkənd kolxozunda manqa başçısı işlərkən hər hektardan 66,5 sentner (17 iyul 1950-ci ildə), Bahar Talıbova Aşağı Aralıq kənd kolxozunda manqa başçısı işlərkən hər hektardan 60 sentner (30 aprel 1966-cı ildə), Mirhəmzə Eminov Yaycı kənd kolxozunda manqa başçısı işlərkən 17 hektar tütün sahəsinin hər hektarından 37 sentner məhsul götürdüyünə görə (1973-cü ildə) partiya və hökumət onların əməyini qiymətləndirərək Sosialist Əməyi Qəhrəmanı adı vermişdir [NMRDA: f. 34, s.1, iş 60].

Əlvan metallurgiyanı inkişaf etdirmək sahəsində yeddiillik plan tapşırıqlarının yerinə yetirilməsində qazanılmış müvəffəqiyyətlərə görə SSRİ Ali Soveti Rəyasət Heyəti 20 may 1966-cı il tarixli fərmanı ilə muxtar respublikamız üzrə "Şərəf nişanı" ordeni ilə Parağaçay mədən idarəsinin traktorçusu Yusif Abbasov, Gümüşlü mədəninin qazmaçısı Məmməd Əliyev, Parağaçay mədən idarəsinin qazmaçısı Müslüm İbrahimov, "Əməkdə igidliyə görə" medalı ilə Gümüşlü mədəninin filiz daşıyanı Cavanşir Qəhrəmanov, baş geoloq Ramiz Kərimov, "Əməkdə fərqlənməyə görə" medalı ilə Parağaçay mədən idarəsinin qazmaçı köməkçisi Əmir Cəfərov təltif olunmuşlar.

## NƏTİCƏ

Beləliklə, 30-cu illərdə əmək məhsuldarlığını yüksəltmək uğrunda staxanov hərəkatının genişlənməsindən sonra muxtar respublikanın əməkçiləri dövlət tapşırıqlarını artıqlaması ilə yerinə yetirmək uğrunda mübarizəyə başladılar. Həm tərəqqi, həm müharibə dövründə, həmçinin bərpa və sonrakı dövrdə muxtar respublikanın staxanovçuları qüvvə və bacarıqlarını sərf edərək tapşırıqları yük-

sək əmək nailiyyətləri ilə yerinə yetirdilər. Həmin dövrlərdə Naxçıvan tütün fermentasiya zavodunun, Ordubad ipək fabrikinin, konserv zavodunun, Naxçıvan şərab zavodunun, Naxçıvan ət-süd kombinatının, Ordubad aqrar-sənaye kombinatının kollektivləri sosializm yarışında yeni zirvələr fəth etdilər. Zəhmətkeş kənd əməkçiləri yüksək öhdəliklər götürərək öz vədlərinə şərəflə əməl etmiş və həmyerlilərimiz xalq təsərrüfatının bütün sahələrində çox böyük uğurlar qazanmışlar. Əzmlə çalışıb yüksək nailiyyətlər əldə edən muxtar respublikanın staxanovçularının əməyi partiya və hökumət tərəfindən qiymətləndirilmiş, onlar keçici qırmızı bayraqlar, müxtəlif fəxri adlar, orden və medallarla, pul mükafatları və s. ilə təltif edilmişlər.

Muxtar respublikanın sənaye müəssisələrinin staxanovçuları xalq təsərrüfatı planlarını vaxtından əvvəl yerinə yetirmək uğrunda Ümumittifaq sosializm yarışına qoşularaq ən mühüm məhsul növlərinin satışına və buraxılmasına dair 1973-ci il planını dekabrın 12-də yerinə yetirdilər. Partiya və hökumət sənaye, kənd təsərrüfatı, tikinti və nəqliyyat işçilərinin əməyini yüksək qiymətləndirdilər. 1973-cü il Ümumittifaq sosializm yarışında qazandığı müvəffəqiyyətlərə görə Naxçıvan MSSR-ə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-in və ÜİLKGİ MK-nın Qırmızı bayrağını verdilər. Sonda qeyd edək ki, muxtar respublikamızın əməkçiləri IX-XI beşilliyin dövlət planlarını uğurla yerinə yetirərək Qırmızı bayraq almışlar.

## ƏDƏBİYYAT

Cəfərov, F. (1985, № 173). *Staxanov hərəkatının 50 illiyi qarşısında.* Sovet Naxçıvanı.

Cəfərov, F. (1985). *Staxanovun Şərur torpağındakı ardıcılları.* İşıqlı yol.

Əliyev, H.Ə. (2001). *Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında.* XXI-Yeni nəşrlər evi.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): f. 299, s. 1, iş 37, v. 1-2.

NMRDA: f. 314, s. 11, iş 206, v. 4-5.

NMRDA: f. 34, s. 1, iş 58, v. 6-7.

NMRDA: f. 34, s. 1, iş 60, v. 8.

Джафаров, Ф. (1985). *Стахановцы в годы прогресса и войны.* Советская Нахичевань.

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 28.01.2026**
**Son variant 18.02.2026**